**VƏSXANIM CƏFƏROVA**
*Bakı Dövlət Universitetinin dosenti*

# KEÇİD DÖVRÜNDƏ CƏMİYYƏTİN SOSİAL STRUKTURU

XX əsrin 80-ci illərindən etibarən ziddiyyətlərin kəskinləşməsi, siyasi böhranın dərinləşməsi, iqtisadi tənəzzül, sosial problemlərə laqeydlik yeni tipli cəmiyyətə keçid üçün zəmin yaratdı.İqtisadi bazisin dağılması və sosial struktur dəyişiklikləri yeni cəmiyyətə keçidin əsasını qoydu. İqtisadi, siyasi, sosial sahələri əhatə edən dəyişikliklər həm mənfi, həm də mütərəqqi proseslərlə əlaqədar idi.

Azad sahibkarlığın və sərbəst rəqabət sisteminin inkişafı ilə iqtisadiyyat, siyasət və ideologiya sahəsində baş verən dəyişikliklər sosial qrup və birliklərin ictimai mövqeyinə böyük təsir göstərir.

Keçid dövründə özəl təsərrüfat münasibətlərinin inkişafı təbəqələşmə prosesini sürətləndirir və yeni mülkiyyət münasibətlərinin təmsilçiləri olan təbəqələrin, sosial qrupların meydana gəlməsini şərtləndirir. Bu dövrdə yeni sosial struktur üç istiqamətdə formalaşır:

- mülkiyyətin çoxnövlüyü əsasında yeni sosial qruplar meydana gəlir;
- dövlət əmlakının tranformasiyası baş verir, əvvəlki sosial qrupların statusu dəyişir;
- iqtisadiyyatın strukturunun yenidən qurulması əsasında yeni təbəqələr yaranır.

Keçid dövründə sosial strukturun dəyişməsi təkrar istehsal prosesi ilə bağlıdır. Bu proses ayrı-ayrı şəxslərin və insan qruplarının cəmiyyətdə yerdəyişməsi və sosial mobilliyin artması, insanların bir sosial təbəqədən digərinə keçməsi ilə müşayiət olunur.

Cəmiyyətin sosial strukturunun dinamikasının xarakteri sosial mobilliyin nəticələrindən asılıdır. Sosial qrupların mobilliyi obyektiv və subyektiv amillərlə bağlıdır. Obyektiv amillər iqtisadi islahatların həyata keçirilməsi, bazar münasibətlərinin formalaşması, yeni sosial qrupların yaranması ilə, subyektiv amillər isə insanların peşə və nüfuz qazanması üçün göstərdiyi səylərlə əlaqədardır.

Totalitarizmdən demokratiyaya və siyasi plüralizmə, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid şəraitində cəmiyyətin sosial stratifikasiya meyarları da keçid xarakterli olur.

Sosial qrupların statusunu, cəmiyyətini sosial stratifikasiyasını dörd meyara görə qiymətləndirmək olar:

- siyasi potensiala görə (fərdlərin və qrupların həyata keçirdiyi hakimiyyət və idarəetmə funksiyalarının həcminə görə);
- iqtisadi potensiala görə (mülkiyyətə, gəlirlərə və həyat səviyyəsinə görə);
- sosial -mədəni potensiala görə (təhsil və peşə dərəcələrinə, həyat tərzinin xüsusiyyətləri və keyfiyyətlərinə görə);
- sosial nüfuza görə (qeyd olunan bütün əlamətlərin cəmi).

Keçid dövründə sosial strukturda siyasi komponentin yeri və xüsusi çəkisi azalırsa, iqtisadi amillərin (mülkiyyət, gəlirlər, sərvət sahibi olmaq) rolu güclənir. Yeni mülkiyyət münasibələrinin formalaşması şəraitində sosial qrupların mövqeyini üç amil səciyyələndirir:

- gəlir gətirən kapitala malik olmaq;
- ictimai məhsulun mübadiləsi və bölgüsü proseslərinə nəzarət etmək;
- şəxsi gəlir və ehtiyacların səviyyəsi.

Bu dövrdə qeyri-dövlət mülkiyyətinin yaranması və maliyyə, sənaye, ticarət kapitalının inkişafı ilə müxtəlif mülkiyyət sahibləri meydana çıxır, kənd təsərrüfatında fermerlər təbəqəsi formalaşır.

Ümumdünya İnkişaf Bankının keçid dövrü ölkələrinin bazar iqtisadiyyatına adaptasiyası ilə bağlı hesabatı bu ölkələrdə sosial struktur dəyişikliklərinin əsas istiqamətlərini müəyyənləşdirməyə imkan verir. Burada iki əsas göstəriciyə – real əmək haqqının indeksi və qeydə alınmış işsizlik səviyyəsinə diqqət yetirilməlidir.

Keçid dövründə orta mülkiyyətin üstünlük təşkil etməsi ilə əlaqədar ictimai məhsulun bölgüsü və mübadiləsinə nəzarət amili də xüsusi əhəmiyyət kəsb edir.

Keçid dövründə yeni təsisatların formalaşması prosesində sosial və əmək mobilliyi güclənir. Bununla əlaqədar insanların sosiallaşma və təhsil səviyyəsi, yeni bilikləri mənimsəmə dərəcəsi, dünyagörüşü onların sosial statusuna ciddi təsir göstərir.

Yeni sosial-iqtisadi sistemdə uğur meyarı tamamilə dəyişir, yeni şəxsiyyət tipi formalaşır. Özgələşmə prosesi təbəqələşmənin dərinləşməsinə səbəb olur.

Xüsusi mülkiyyətin və bazar münasibətlərinin qərarlaşması nəticəsində siniflərin psixologiyası dəyişikliyə uğrayır.Odur ki, belə cəmiyyətin sosial strukturu ilə bağlı müəyyən məqamlara diqqət yetirmək lazımdır.

Sahibkarlıq fəaliyyəti müasir cəmiyyətin tərəqqisini, iqtisadi sistemin dinamizmini müəyyən edən mühüm amil sayılır və onu bir sıra xüsusiyyətlər səciyyələndirir:

- qazanc əldə etməyə yönəlmiş məqsədli fəaliyyət;
- iqtisadi qərarların qəbul edilməsində sərbəstlik;
- şəxsi məsuliyyət və müstəqillik.

Sahibkarlar (istehsal, ticarət, maliyyə və s. sahələrdə) fəaliyyət miqyasına görə üç qrupa (iri, orta və kiçik sahibkarlar) bölünürlər. Həyata keçirilən islahatlar bütün sosial qrup və təbəqələrin sosial simasını və ictimai vəziyyətini dəyişdirir. Aztəminatlı qrupların gəlirlərinin azalması və orta təbəqənin diferensasiyası nəticəsində qeyri-bərabərlik artır. Bazar münasibətləri gəlirlərin bərabər bölgüsünü təmin etməyə qadir olmadığı üçün sosial qeyri-bərabərlik daha da dərinləşir. Sosial təbəqələr müxtəlif fəaliyyət potensialına, yeni sosial təsisatların formalaşması, möhkəmlənməsi və inkişafında iştirak dərəcələrinə görə fərqlənirlər. Bu təbəqələrin yeni sosial-iqtisadi münasibətlərə adaptasiyası onların sosial-demoqrafik potensialından asılıdır.

Əhalinin əksər hissəsi şəxsi mülkiyyətə malik olmadığı üçün onların iqtisadi vəziyyəti əmək mübadiləsində əldə etdiyi gəlirlər hesabına formalaşır. Nəticədə cəmiyyətdə əmlak bərabərsizliyi hökm sürür, işsizlər təbəqəsi yaranır. İşsizlik problemi mənfi sosial-iqtisadi nəticələr doğurur, sosial gərginliyi artırır və təbəqələşməni dərinləşdirir.

Qərb siyasi elmində cəmiyyətin sosial strukturuna daxil olan müxtəlif təbəqələrin qarşılıqlı əlaqələrinin xarakteri öyrənilərkən ilk növbədə onların bazar münasibətləri sistemində həyata keçirdiyi funksiyalara diqqət yetirilir.

Keçid dövründə orta təbəqənin tərkibi rəngarəng olur. Buraya müəyyən müəssisə rəhbərləri, fərdi biznes sahibləri, professional peşə ilə məşğul olanlar daxildir ki, onların da maddi gəliri yüksək təbəqədən 2,5- 3 dəfə azdır. Baza və aşağı təbəqənin tərkibində əsasən dövlət bölməsində çalışan icraedici şəxslər təmsil olunur. Baza təbəqəsinə yeni sosial-iqtisadi şəraitə uyğunlaşan aztəminatlı və kasıb qruplar aiddir. Keçid cəmiyyətində bu təbəqə əmək ehtiyatlarının əsas hissəsini təşkil edir.

Sosial strukturda bazar münasibətlərinə uyğun yaranan yeni sosial təbəqələr (kiçik sahibkarlar, orta və böyük müəssisələrin menecerləri, bürokratiyanın orta nümayəndələri, zabitlər heyəti, peşəkar mütəxəssislər və işçilər qrupu) sosial sistemin inkişafı və islahatların başlıca hərəkətverici qüvvəsi kimi çıxış edirlər. Cəmiyyətin orta təbəqəsini təşkil edən qruplar sosial münasibətlərin sabitləşməsində mühüm rol oynayırlar.

Orta təbəqə sosial baxımdan əmək və peşə statusunun dərəcələri arasında fərqin azalmasına, siyasi münasibətlər sahəsində vətəndaş cəmiyyətinin formalaşmasına zəmanət verir, mədəni sahədə yeni dəyər və ənənələr sisteminin daşıyıcısı kimi çıxış edir.

İnkişaf etmiş Qərb ölkələrində orta sinif cəmiyyətin 55-75%-ni əhatə edir. Keçid dövründə orta təbəqə müstəqil kapitala, yüksək nüfuza və peşəkarlığa malik olsa da, onun transformasiya prosesində rolu yüksəlir.

Keçid dövründə kənd təsərrüfatında həyata keçirilən islahatlar yeni sosial təbəqənin-fermerlərin yaranmasını şərtləndirir. Bu proses əvvəlki kolxoz- sovxoz təsərrüfatlarının ləğv olunması və yeni fermer təsərrüfatlarının formalaşması ilə səciyyələnir. Bazar iqtisadiyyatı şəraitində fermer təsərrüfatları sənayenin və əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatını stabil təmin etmək üçün əlverişli təsərrüfat ukladı hesab olunur. 80-90-cı illərdə SSRİ-də həyata keçirilən islahatlar nəticəsində meydana çıxan fermerlər keçid dövründə müstəqil sosial təbəqə kimi inkişaf edir. Onlar böyük, orta və kiçik kənd təsərrüfatı müəssisələrinin sahibi olan sosial-iqtisadi qrup kimi çıxış edirlər. Bu təbəqənin formalaşması aqrar sahədə baş verən struktur dəyişikliklərinin nəticəsidir. Köhnə kəndli təsərrüfatından fərqli olaraq fermerlər sahibkarlıq subyekti kimi çıxış edirlər. Azərbaycanda fermer təsərrüfatlarının özəlləşdirilməsinə 1996-cı ildə prezident sərəncamı ilə start verildi. 1998-ci ildə kolxoz və sovxozların 94%-nin ləğv edilməsi ilə 26 min fermer təsərrüfatı yaradılsa da, onlar hələ də cəmiyyətin sosial strukturunda aparıcı yer tutmamışlar. Belə ki, fermer təsərrüfatlarının 90%-i nəzərdə tutulan fəaliyyətlə məşğul ola bilməmişlər (1,səh.124). Dövlətin hərtərəfli yardımı olmadığına görə fermer təsərrüfatları ümumdövlət məqsədləri üçün deyil, şəxsi ehtiyacları təmin etmək üçün fəaliyyət göstərirlər.

Əmlak münasibətləri sistemində, hakimiyyət ierarxiyasında, gəlirlərin həcmində sosial qrupların və fərdlərin yeri və rolunun dəyişməsilə mövcud dəyərlər, davranışlar, siyasi yönüm və motivlər sistemində yaranan ciddi dəyişikliklər nəticəsində marginal sosial təbəqələr meydana çıxır. Marginallaşma prosesi iqtisadiyyatda sosial dəyişikliklərin baş verməsi və cəmiyyət üzvlərinin həyat səviyyəsinin aşağı düşməsi ilə bağlıdır. Köhnə və yeni sosial münasibətlərin daşıyıcısı olan marginal qruplar qeyri-müəyyən sosial statusa malikdir. Keçid dövründə marginallaşma iki amillə bağlıdır:

- köhnə sosial qrupların yeni siyasi-iqtisadi münasibətlər sisteminə daxil olması;
- köhnə sosial-mədəni dəyərlər sisteminin süqutu və yenilərinin formalaşması.

Marginal sosial təbəqəyə işsizlər, cinayətkarlar, tüfeyli şəxslər, əlilllər, daimi yaşayış yeri olmayanlar və s. daxildir. Marginallaşma prosesinə işsizlik böhranı güclü təkan verir. Marginal təbəqələrin sosial mövqeyində və davranışında ziddiyyətlər iki əsas amillə əlaqədardır:

- öz qabiliyyət və bacarıqlarını, peşə hazırlıqları və təhsil səviyyələrini yüksək qiymətləndirmək;
- tez uğur qazanmaq və vəzifəyə yiyələnmək səyləri.

Marginallaşma konsepsiyası Emil Dürkheymin «anomiya» nəzəriyyəsinə əsaslanır. Marginallaşma nəticəsində cəmiyyətdə kütləvi nevrozlaşma, depresiya halları artır.

Keçid dövründə kütləvi marginallaşmanın qarşısını almaq üçün ilk növbədə onu doğuran iqtisadi, sosial mexanizmləri dəyişmək lazımdır. İşsizlik probleminin həlli əhalinin kəmiyyət və keyfiyyət tərkibinin müəyyənləşdirilməsini, iri sənaye şəhərləri və rayonlarında çoxnövbəli iş sisteminin təşkil edilməsini, əhalinin sıx yerləşdiyi ərazilərdə sənaye müəssisələrinin filiallarının açılmasını, xarici firmalarla müştərək müəssisələrin yaradılmasını, xalq təsərrüfatının bütün sahələrinin texniki bazasının möhkəmləndirilməsini, əmək birjalarının yaradılmasını tələb edir. Əmək miqrasiyasını, məşğulluq siya-

sətini tənzimləyən hüquqi bazanın və idarəetmə sisteminin yaradılması dövlət siyasətinin əsasını təşkil etməlidir.

### ƏDƏBİYYAT

1.Allahverdiyev Ə.Q.Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamika və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri. Bakı, 2001
2.Cəfərova V.Azərbaycan müstəqillik dövründə: problemlər, perspektivlər. Bakı, 2005
3.Гасанов Р.М.Формирование гражданского общества в условиях трансформации. Баку, 2003
4.Мамедова Р.Основные тенденции изменения социальной структуры Азербайджанской Республики. Баку, 2000

**ВЕСХАНУМ ДЖАФАРОВА**
***доцент Бакинского Государственного Университета***

### СОЦИАЛЬНАЯ СТРУКТУРА ОБЩЕСТВА В ПЕРЕХОДНЫЙ ПЕРИОД

В статье рассматривается проблема изменений, происходящих в переходный период общества в социальной структуре, объективные и субъективные факторы, их обусловливающие. Статус социальных групп, социальная стратификация общества оценена на основе обще принятых научных критериев.

**VASKHANUM JAFAROVA**
***Assistant Professor of Baku State University***

### SOCIAL STRUCTURE OF SOCIETY DURING TRANSITION PERIOD

In this article it was paid attention to the changes happened in this society during transition period and their objective and subjective factors, also in this article status of social groups and social stratification of society were appreciated in accordance with different criteria.

***Rəyçilər: dos.N.S.İbadov, f.e.d.Z.Hacıyev.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 17 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №03).***